# AQRAR SAHƏNİN MÜASİR İNKİŞAFI



Son illərdə dövlətimizin başçısı cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində respublikada iqtisadiyyatın neftdən asılılığı aradan qaldırılır. Qeyri-neft sektorunun inkişafında dinamik artım müşahidə olunmaqdadır. İqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlar müsbət nəticələrin əldə olunmasına stimul verir. Azərbaycanın ixrac potensialı ilbəil yüksəlir. Ölkədə bütün sahələrdə olduğu kimi, aqrar sahənin sürətli inkişafına nail olmaq üçün innovativ metodlardan istifadə olunur. Belə ki, dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da respublika Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə müasir standartlara tam cavab verən aqroparklar yaradılmış və bu işlər davam etdirilir. Aqroparklarda məhsuldarlığın yüksəldilməsi ixracyönümlü rəqabətədavamlı məhsulların istehsalı, saxlanması, çeşidlənməsi və s. başqa vacib işlərin görülməsi yüksək səviyyədə həyata keçirilir. Nəticədə daxili bazarlarda bolluq yaranmaqla yanaşı, ixrac olunan məhsulların müqabilində respublikaya valyuta axınına şərait yaranır. Bununla yanaşı, bölgələrdə əhali daimi və mövsümi işlə təmin olunur.

Aqrar sahənin yüksək təşəkkül tapdığı bölgələrdən olan Tovuz rayonunda da uzun illərdir ki, əkin dövriyyəsindən kənarda qalmış, əkinəyararlı olmayan "Ceyrançöl" adlanan ərazidə dövlət başçısının müvafiq sərəncamı ilə möhtəşəm "Tovuz Aqro" MMC-nin hazırkı durumu ilə maraqlandıq. Rayon mərkəzindən təxminən 30 km-dən artıq məsafədə yerləşən müəssisəyə səliqəli asfalt yol çəkilmiş, yol kənarlarına yüzlərlə şam ağacları əkilmişdir.

Müəssisəyə daxil olduqda burada yaradılan yüksək səliqə-sahman zövq oxşayır. "Tovuz Aqro" MMC-nin direktoru Şadkamal Hüseynov bizi səmimiyyətlə qarşılayaraq bildirdi ki, ərazidə 800 ədəd gilas ağacı, 200 ədəd ərik, 100 ədəd alça, 500 ədəd qoz, 3000-ə yaxın şam ağacı, 3000-dən artıq dekorativ ağac və gül kolları əkilərək yüksək aqrotexniki qulluq göstərilir. Ağac və kolların suvarılması damcılama üsulu ilə həyata keçirilir. Hazırda müəssisədə 1300 başa yaxın ətlik cinsdən olan iribuynuzlu heyvan bəslənir. Əsasən "Şarole", "Aberdin Anqus", "Simmental" cinsləridir.

Bəslənən mallar əsasən Ukrayna respublikasından gətirilmişdir.



Müəssisədə ana sürüsünün artırılması istiqamətində mühüm işlər aparılır. Hazırda müəssisədə 80 baş cavan düyə vardır. Artıq heyvanlardan 23 baş sağlam buzov əldə olunmuşdur. Döl vermə davam edir. Qeyd etmək lazımdır ki, buzovların bir qismi süni mayalanma yolu ilə, digər qismi isə müəssisədə olan sağlam buğalar hesabına əldə olunmuşdur.

Şadkamal Hüseynov bildirdi ki, bəslənən heyvanların yem ehtiyatı havalar isti keçdiyi vaxtlardan görülmüşdür.

2019-cu ildə aparılan düzgün aqrotexniki tədbirlər nəticəsində yüksək məhsuldarlıq əldə olunmuşdur. Hər hektardan 50 sentner buğda, 60 sentner arpa, 50 sentner qarğıdalı əldə olunmuşdur. Çoxillik bitki olan 3200 yonca, 40 min ədəd saman kipi, 2096 ton silos (yaş qarğıdalı) tədarük olunmuşdur.

2020-ci ilin məhsulu üçün 100 ha buğda, 160 ha arpa, 93 ha çovdar və noxud, 31 ha yonca əkilmişdir. Cəmi 71 ha yonca sahəsi mövcuddur. Eyni zamanda, cari ilin aprel ayında 100 hektara yaxın dənlik qarğıdalı əkini aparılacaqdır. Bitkilərin suvarılması ABŞ istehsalı olan "PİVOT" suvarma sistemi ilə mənbəyi Kür çayı olmaqla həyata keçirilir.

Növbəli əkin aparılaraq arpa biçinindən sonra sahələrə qarğıdalı əkilmiş və yüksək nəticə əldə olunmuşdur. Hər hektardan 26 ton yaşıl kütlə götürülmüşdür. Yem ehtiyatı ilə bağlı heç bir problem gözlənilmir.

Qeyd etmək lazımdır ki, artıq ət satışına start verilmişdir. Satış əsasən respublika daxilində qapalı müəssisələrlə həyata keçirilir. Müəssisədə bölgədə analoqu olmayan ət kəsimi sexi fəaliyyət göstərir. Sexdə bütün proseslər avtomatik, gigiyenik qaydalara əməl olunmaqla həyata keçirilir.

Sex sutka ərzində 90 baş iribuynuzlu, 200 baş xırdabuynuzlu heyvan kəsimini, ətin çeşidlənməsi və başqa prosesləri aparmaq gücünə malikdir. Bu günlərdə Avropa ölkələrindən müəssisəyə mütəxəssislər gəlmişlər. Yaxın zamanlarda Beynəlxalq İSO-22000 standartının tələblərinə cavab verən sertifikat təqdim olunacaqdır.

Yaxın zamanlarda bir sıra xarici ölkələrə ət ixracı nəzərdə tutulur. İran, Türkiyə və Çin Xalq Respublikası ilə niyyət protokolları imzalanmışdır. Müxtəlif çeşidli ət məhsullarının satılması üçün sifarişlər qəbul olunmuşdur. Çin Xalq Respublikası əsasən daxili orqanlara, İran və qardaş Türkiyə isə halal kəsim olan ət sifarişini vermişlər.

Müsahibim vurğuladı ki, hazırda müəssisədə 100 nəfər daimi işlə təmin olunmuşdur. Yaxın zamanlarda işçilərin sayı 200-ə çatdırılacaqdır. Göründüyü kimi, Aqroparkların respublika iqtisadiyyatının inkişaf etdirilməsində özünəməxsus rolu vardır.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika.-2020.- 24 yanvar.- S.5.